

# BU, AFAQ MƏSUDDUR...

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**"Mən inanıram ki, Afaq Məsudun yaradıcı günəşi öz üfüqündən boylana-boylana qalxacaqdır, gənclik dəst-xətti daha da püxtələşməkdə davam edəcəkdir"**

***(Süleyman Rəhimov)***

Ədəbi nəsillər arasında ənənə-varislik ənənələri həmişə öz mürəkkəbliyi və dramatikliyilə seçilib. Yaşlı və bu yaşlı nəsli təqib edən orta nəsil ədəbiyyata gələn cavan nəslə həmişə qısqanclıqla yanaşıb. Məsələn, "Sovet ədəbiyyatının banilləri" ədəbiyyatın sonrakı inkişaf mərhələlərini də "özününküləşdirmək" istəyini gizlətmirdilər. Təsadüfi deyil ki, 40-50-ci illərdə ədəbiyyata gələn nəsillər də ilk qələm dövrünü banilərin təsiri altında başa vururlar. Beləliklə, şeirdə və nəsrdə uzun müddət məlum üslubların hökmranlığı və diqtəsi davam etdi. Ancaq vay o ədəbiyyata ki, orada polifoniya-üsluğ müxtəlifliyi, bir-birinə əks olan meyllər yoxdu, bir üslubun, iki-üç ustadın hökmi-rəvişindədir. Çünki ədəbiyyat daim yeniləşməli, novatorluq meyilləri və hadisələri ilə zənginləşməlidir. Hətta stereotiplərin və doqmaların güclü müqavimətinə baxmayaraq (60-cı illərdəki sərbəst şeir davasını, "eksperimentçilərə" hücümü, 70-ci illərdə yenə bir çox cavan şairlərin boz tənqidin haqsız iradlarına hədəf olması, şeirlərindəki ayrı-ayrı misraların mətndən xaric "təhlil" edilməsi, Mövlud Süleymanlının 80-ci illərin lap əvvəllərində "Dəyirman" əsərinə görə az qala antiədəbiyyat nümayəndəsi kimi tanıdılması) ədəbiyyatda yeni nəsil mütləq özünə yol açmalıydı.

Əlbəttə, bu fikirlə biz yaşlı ədəbi nəslin yenilik hissini duya bilməməsini mütləqləşdirmək olmaz. O nəsil içərisində yalnız özünə qapılanlarla yanaşı, özündən sonrakıları qiymətləndirənlər də vardı. Rəsul Rza bunun bariz təcəssümü idi. Mehdi Hüseyn də arabir cavanlar haqqında yazırdı. Ancaq Süleyman Rəhimov kimi bir sənqətkarın Afaq Məsud haqqında "öz gənc qələmilə seçilən" bir nasir kimi danışması o zaman ədəbi ictimaiyyətdə hər halda maraqla qarşılanmalı hal idi.

Ystündən iyirmi il keçib və bu iyirmi ildə doğrudan da Afaqın dəst-xətti daha da püxtələşib. "Püxtələşmək" sözü indii bəlkə də yerinə düşmür, əvvəl "formalaşıb"; sonra "kamilləşib" sözlərini işlətmək daha dəqiq olardı.

Afaqın nəsri barədə daha bir mülahizəni xatırlatmaq istəyirəm.1984-cü ildə Anar Afaqın hekayələrini və "Qarğış" povestini çox incəliklə-duyuban, anlayıban təhlil edəcək, bu əsərlərin özünəməxsusluğunu, üslubunun, fərdi dəst-xəttinin yeniliyini şərh edibən yazacaqdı: "Müəllif həyat yolu, ömür təcrübəsi etibarilə özündən çox-çox uzaq adamların qınına girməyi, onları duymağı və duyduqlarını danışmağı bacarır...- Müəllif həyatın ciddi məsələləri barədə güzəşsiz düşünür və danışır. Onun əsərlərində canlı detallar, dəqiq müşahidələr, obrazlı bənzətmələr çoxdur".

Elə bilirik ki, Anarın bu təqdirində də heç bir güzəşt yox idi, ola da bilməzdji: çünki Afaqın hər hansı bir hekayəsi və ya povesti barədə onunla mübahisə etmək mümkündür, ancaq bu əsərlərin professionallığı xüsusunda irad söyləmək çətin idi. Şəxsən bu sətirlərin müəllifi Afaqın hekayə və povestlərindəı sanki mövzu baxımından müəyyən çərçivənin mövcudluğunu irad tuta bilərdi, amma sonra daha nəyi irad tutaydı ki, "dörd divarın arasında daha böyük bir aləm, geniş bir dünya var" (Anar). Afaq dörd divar arasından dünyanı nəinki seyr edirdi, nəinki görürdü, onun təzadlarını bu çərçivə daxilində sənətkar məharətilə canlandırırdı. İkincisi, "dörd divar arasında" yaxud çərçivə anlayışlarını da şərti qəbul etmək lazımdır. Əgər "dörd divarın arasında" doğrudan da daha böyük bir aləm, geniş bir dünya canlanırsa, burada məkan anlayışının zərrə qədər də əhəmiyyəti yoxdur.



Afaq Məsudun ilk hekayələri və povestləri haqqında da ənənəvi, standart ölçülərlə danışmaq mümkün deyildi. Başlıcası, ona görə ki, bu nəsrin özü lap ibtidadan mümkün qədər ənənəvi-trafaret meyarlara uyğun gəlmirdi. Kimsə deyə bilər ki, yazıçı üçün səlis cümlə qurmaq, bu cümlələri müəyyən bir axara salmaq, mətni düşünülmüş konstruksiyada, mətləbə uyğun tərzdə oxucuya təqdim etmək professionallığın ilkin şərti sayıla bilər. Mənası budur ki, yazıçı istedadlı olduğu qədər də professional olmalıdır. İstedad qandan, kökdən gəlir, professionallıq isə gərgin səylərin, böyük zəhmətin bəhrəsidir. Afaq Məsudda istedadla professionallıq vəhdət halındadır.

"Səhər elə həmin səhzər idi. Dünənki, srağagünkü, bir həftə, bir ay bundan qabaqkı. Yenə gün çıxmamışdı, yenə həyət səs-küylü idi-uşaq ağlayırdı, yerə stəkan düşüb sınırdı, yoğun kişi səsi nə isə deyib gülürdü, paltarlarla dolu zivələr o yan-bu yana dartılıb cüyüldəyirdi" ("Üçüncü mərtəbədə").

Bu təsvirdə nə parlaq, cazibəli yaz səhərinin nəfəsi duyulur, nə də çox kədərli, tutqun bir payız, ya qış səhərinin zəhmi var. Ancaq hiss olunur ki, fəci, dramatik bir hadisəyə işarədir."Qaranlıq otaqdakı əyri taxtın üstündəkimsə tərpəndi. Sonra öskürdü. Bu öskürəkdən daha çox öyüməyə bənzəyirdi. Xırıltılı sinəsini doldurub var gücü ilə öskürürdü. Elə bil ciyərləri, bağırsaqları bu dəqiqə ağzına gəlib yerə töküləcəkdi. Əyilib yerə tüpürdü. Sonra otaqda insan səsindən daha çox heyvan iniltisinə bənzəyən bir səs eşidildi". Afaq əksər hekayələrində bax beləcə, pilə-pillə dramatikliyi artırır.

Hiss olunurdu ki, ilk hekayələrindən başlayaraq, Afaq bütün yazılarında nəsrə məxsus bəzi stereotipləri, artıq ehkama çevrilmiş donuq sintaksisi, təhkiyə tərzini qırıb dağıtmağa çalışır. Yəni əslində, bu dağıtmaqdan daha çox nəyi isə tikməyə, qurmağa oxşayırdı. İllər keçəcəik və Afaq "Azadlıq" qəzetinə verdiyi müsahibədə djeyəcək ki: "Mən heç vaxt nəyinsə dağıdılmasının tərəfdarı olmamışam. Üstəlik də söhbət ədəbiyyatdan gedir- dediyiniz "dağıdılma"prosesi, ola bilər Azərbaycan ədəbiyyatının çərçivələrinin dağıdılması yox, mənim əsərlərimin, uzun illərdən bəri ədəbiyyatımızın canına hopan milli-ənənəvi, ictimai-etik, mənəvi-əxlaqi və ilaxır, ilaxır normalarına bir qədər biganə ovqatda yazılmasından alınan təsirdi. Ola bilər, bu ovqat Siz deyən kimi dağıdıcıdı?.. Hər halda, azadlığın müxtəlif formalarda dağıdıcı nəticələri olur. Mənqim əsərlərimin də dağıdıcı qüvvəsi ola bilər daxili azadlığındadı".

Bəli,daxili azadlıq hər hansı yazıçı üçün ölkənin müstəqilliyi qədər bir səadətdir, xoşbəxtlikdir. Yazıçı başı üstündə kimlərinsə ya hansı hakim ideologiyanınsa qılıncından qorxmayanda öz daxili azadlığını əldə etmiş olur, ruhundakı cəsarət istedadına qovuşur. Ancaq bədii ədəbiyyatda bu daxili azadlığı təkcə "hökmdarın hüzurunda" olmamaq kimi anlamaqş məsələni birtərəfli qavramaq deməkdir. Yazıçı üçün daxili azadlıq həm də müəyyən stereotiplərə qarşı çıxmaqdır.

Afaq həmin müsahibəsində deyir: "Qəza" hekayəsinin qəhrəmanının-cavan bir qadının gecədən xeyli keçmiş evə hələ də gəlib çıxmayan ərini gözləyərkən küçədən eşidilən pişik miyoltularına...elə bil pişikləri zorlayan əriydi..-reaksiyası Azərbaycan ədəbiyyatına qətiyyən xas deyil. Amma məncə, ədəbiyyat elə budu".

Afaqın bu sonuncu fikri ilə mübahisə də etmək olar. Ancaq bunun ardınca "ədəbiyyat-hadisələrin yox, hisslərin süjetidi" deyəndə onun bütün nəsrinə yayılan bu tipli "reaksiyaların" mahiyyətini anlamağa çalışırsan.

Əslində, ədəbiyyat doğrudan da hadisələrin yox, hisslərin süjetidir. Və təbii ki, bu fikrin müəllifi də təkcə Afaq deyil. Amma Afaqın nəsrində bu fikir bütün çalarlarıyla nəzərə çarpır.

Afaq "Roman.Esse. Hekayə" kitabına on dörd hekayə daxil edib və bu hekayələrin hər birinin oxucuda oyatdığı estetik ovqatın dərəcəisi müxtəlifdir. Elə hekayəsi var ki, yalnız müəyyən bir ovqatın təsirindən yaranıb, "hisslərin süjeti" məhz o ovqat üstündə davam edir. Əslində, həmin ovqat obrazın mənəvi durumunu, hiss-həyəcanlar kompleksini, psixologiyasını açıqlamaq üçün bədii bir vasitəsəyə çevrilir. "Gün" hekayəsinin qəhrəmanı "əclaf günün" işığından girincdir. "Başını da xarab eləyən odu. Bircə axşamlar, gün batandan sonra elə bil beyni açılırdı, başı saat kimi işləməyə başlayırdı. Gün ərzində elədiyi bütün heyvərəliklərinin altını çəkməyin vaxtı çatırdı". Və bundan sonra müəllif gün işığına nifrət eləyən bu tipin bir günlüe həyatından fraqmentlər təqdim edir. Əslində, burada zaman məfhumu yoxdur, obrazın "zamanını" özündə ehtiva edən günlər, aylar, illər var. Günəşdən, işıqdan məhrum olmaq təkcə korlara aid deyil, günəş və işıq insanı yaşadan mənəvi enerjidir həm də. Yuxuda dostunun qara əlləri arasında çabalaya-çabalaya boğulan həmin tipin "son dəfə gördüyü yenə yuxarıda sırtıq gözləriylə irişən günəş oldu..."- bu cümlə də Afaqın həmin müsahibədə "Azərbaycan ədəbiyyatına qətiyyən xas olmayan" orijinal "reaksiyası"ndandır.

**Afaqın hekayələrində (bu, bütövlükdə onun bütün nəsrinə xas olan bir xüsusiyyətdir) hər şey (obrazın hiss-həyəcanları, görüntüləri, dünyaya baxışı, daxilini tərpədən nə varsa...) sanki bir məqsədə xidmət edir- SON ANI kəşf eləmək...SON AN ...klassik hekayələrdə olduğu kimi situasiyanın sona varması, hadisənin səbəbdən nəticəyə-yekuna gəlib yetməsi, obrazın "təmiz" qələbəyə yaxud "nikbin" məğlubiyyətə ürcah olması...kimi düşünülsə, onda Afaqın heç bir bəlkə də sonluq yox, başlanğıcdır. Hər şey sanki dağılır, fikirlər, düşüncələr parçalanır, qəlpələnir, hardasa yenidən birləşir. hisslər, duyğular çözələnir, çox vaxt da heç adı məlum olmayan qəhrəmanların taleyində məchulluqlar aydınlaşa-aydınlaşa sonra yenə məchulluğa dönür. Obrazın keçirdiyi hisslər, daldığı düşüncələr, gəldiyi qənaətlər bu fikri təsdiqləyir ki, SON AN Afaq Məsud üçün bir insan dünyasını, insanlararası münasibətləri (təbii ki, ən incə çalarları və mürəkkəblikləri) psixoloji aspektdə açıqlamaq, bəlirləmək üçün bir açardır. Əslində, SON AN İLK ANdır. Onun hər hansı əsərinin sonluğu bizi qətiyyən "burada hər şey aydınlaşldı" fikrinə gətirib çıxarmır. Biz heç də rahat nəfəs almırıq, nigarançılıq azalmır...**

**(Ardı var)**